AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
XÜSUSİ BURAXILIŞ, 2022, 72-88

**Ə H M Ə D   C A V A D – 1 3 0**

# Əhməd Cavadın yaradıcılığı məktəbdə

***Soltan Hüseynoğlu***
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent. Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan. E-mail: soltanhuseynoglu@mail.ru
https://orcid.org/0000-0003-4182-6653

**XÜLASƏ**
Ədəbiyyatşünaslıqda həyatı, yaradıcılığı qədərincə araşdırılmayan Əhməd Cavad Məhəmmədəli oğlu Axundzadə qısa yaradıcılıq yolu keçsə də, ideya-bədii keyfiyyətləri ilə seçilən zəngin irs yaratmışdır. Repressiya qurbanı olan şairin yardıcılığının bir qisminin itib-batdığını təsdiq edən dəlillər də vardır. Uzun illər adının çəkilməsi, əsərlərinin oxunması ölkəmizdə yasaq edilən sənətkara qardaş Türkiyədə sayğı göstərilmiş, həyatı, yaradıcılığı ilə bağlı araşdırmalar aparılmış, əsərləri çap edilmişdir. Dövlət müstəqilliyimiz bərpa olunandan sonra doğma vətənində şair haqqında tədqiqatlara başlanıldı, əsərləri çap edildi. Sənətkarın həyat və yaradıcılığının ümumtəhsil məktəblərində öyrənilməsinə xüsusi qayğı ilə yanaşıldı, həmçinin ali məktəblər üçün hazırlanmış dərsliklərdə onun haqqında oçerklər verildi. Məktəb təcrübəsinin öyrənilməsindən aydınlaşır ki, şairin əsərlərinin mütaliə edilməsinə şagirdlərdə böyük maraq vardır. Bu, səbəbsiz deyil: onun doğma yurdumuza sonsuz məhəbbətini əks etdirən əsərlərini həyəcansız oxumaq mümkün deyildir.

**AÇAR SÖZLƏR**
lirika, siyasi lirika, lirik şair, milli-azadlıq, müstəqillik

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 03.06.2022
qəbul edilib: 15.07.2022

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
SPECIAL ISSUE, 2022, 72-88

**A H M A D  J A V A D – 1 3 0**

# Creativity of Ahmad Javad's at school

***Soltan Huseynoglu***
Doctor of Philosophy in Pedagogy, Associate Professor. Azerbaijan State Pedagogical University. Azerbaijan. E-mail: soltanhuseynoglu@mail.ru
https://orcid.org/0000-0003-4182-6653

**ABSTRACT**
Ahmad Javad Mahammadali oglu Akhundzadeh established a rich artistic heritage that stands out with ideological and artistic features inspite of his short creative path which has not been investigated deeply in literature. There is also evidence that certain part of the poet`s work, who was a victim of repression, disappeared. In our country the poet, whose calling his name reading of his works have been banned for many years, has been honered in fraternal Turkey, research has been conducted on his life and work, and his work have been published. After the restoration of our state`s independence, research on the poet was carried out in his homeland, and his works were published. Special attention was paid to the study of the poet`s life and work in secondary schools. Essays about him were given in textbooks prepared for high school. It is clear from the study of school experience that students have a great interest in reading the works of the poet. This is not without reason: it is impossible to read without excitement his works, which reflect his endless love for our homeland.

**KEYWORDS**
lyrics, political lyrics, lyric poet, national liberation, independence

**ARTICLE HISTORY**
Received: 03.06.2022
Accepted: 15.07.2022

## Giriş / Introduction

Milli-azadlıq mücadiləsini həyatının əsas məqsədinə çevirən Əhməd Cavadın yaradıcılığının ümumtəhsil məktəblərində tədrisi tarixi qədim deyildir. Qardaş Türkiyədə yaradıcılığı dərindən öyrənilən, əsərləri çap edilən, haqqında tədqiqat əsərləri yazılan, doğma vətənində isə xalqımıza unutdurulan, "millətçi" adlandırılaraq gözdən salınmağa cəhd edilən bu sənətkarın geniş tanıdılması işinə ölkəmiz müstəqilliyini bərpa edəndən sonra başlanıldı. Məktəb ədəbiyyat proqramına sənətkarın adının daxil edilməsi bu istiqamətdə aparılan işin ilk addımlarından oldu. Yaradıcılığına məktəb ədəbiyyat kursunun hər iki mərhələsində – V-IX və X-XI siniflərdə yer verildi. Birinci mərhələdə kursun özəlliyinə əsasən, şairin bir lirik şeirinin tədrisi nəzərdə tutuldu. Lakin ədibin yaradıcılığından lirik şeirin müəyyənləşdirilməsi asan olmadı. Bir-birindən təsirli, ideya-bədii xüsusiyyətləri ilə oxucunu ilk tanışlıqdan valeh edən onlarla şeirindən hansının seçilməsi proqram tərtibçilərini xeyli düşündürdü. Dövlət müstəqilliyinin, milli-azadlıq hərəkatının qorxmaz, ardıcıl mücahidi kimi tanınan və bunu əsərlərində yorulmadan ifadə edən sənətkarın doğma vətəninə, onun təbiətinə, insanlarına həsr etdiyi şeirlərin hər biri məktəbdə öyrənilməyə layiq idi. Xeyli davam edən araşdırmalardan sonra komissiya şairin "Göygöl" şeirinin VIII sinifdə tədris edilməsini məqsədəuyğun saydı. XI sinifdə isə sənətkarın həyat və yardıcılığının monoqrafik mövzu kimi öyrədilməsi qərara alındı. Şairin yaradıcılığında önəmli yer tutan, ideya-bədii keyfiyyətləri ilə diqqəti cəlb edən "Səsli qız" poeması həmin sinfin proqramına daxil edildi. Məktəb təcrübəsi seçilmiş nümunələrin uğurlu olduğunu sonrakı illərdə təsdiq etdi.

Həcmi çox da böyük olmayan "Göygöl" şeirinin üzərində dayanılması təsadüfi deyildi. O, təkcə yüksək sənətkarlıqla yazılması ilə deyil, həm də şairin taleyində dərin iz buraxması ilə seçilirdi. Bu əsərin proqrama daxil edilməsi, şübhəsiz, dərin ictimai mətləbləri özündə əks etdirməsi ilə də bağlı idi. Əsərin hər bəndində zahiri qavranılmasından fərqli olan mühüm bir mətləbin – mətnaltı mənanın ifadə edildiyini anlamaq çətin deyildir. Milli dövlətimizin süqut etməsi şairi son dərəcə həyəcanlandırmış, hiddətləndirmiş və o, ölkəmizi işğal edən "qırmızı paltarlı" ruslara nifrətini gizlətməmişdi. Bu mövqe "Göygöl" şeirində – onun alt qatında məharətlə əks etdirilmişdi. Müəllifin yeni quruluşa, əslində, işğalçı rus hakimiyyətinə düşmən mövqeyini sübut etmək üçün şeirin hər misrası rus dilinə tərcünə edilmiş və Moskvaya göndərilmişdi. Şairin bəzi "qələm dostları" xüsusi xidmət orqanlarının tapşırıqlarına əsasən, ədəbi yığıncaqlarda, mətbuatda ona aramsız hücumlar etmiş,

sənətkarı “düşmən”, “müsavat dəyirmanına su tökən” və s. ifadələrlə “mükafatlandırmış”, həbs edilməsinə nail olmuşdurlar.

VIII sinfin “Ədəbiyyat” dərsliyində “Göygöl” şeirinin tədrisi ilə bağlı təklif edilmiş tapşırıq və tövsiyələrdə onun ideya-məzmununun müəllif niyyətinə uyğun açıqlanmasına və dəyərləndirilməsinə istiqamət verilmişdir. Məsələn, şagirdlərin diqqətinə çatdırılırdı ki, “bu şeirə görə şair kommunist rejimi tərəfindən təqib edilmişdir. Şairin gizli niyyəti, nisgili duyulan misraları müəyyənləşdirin, onlarda ifadə olunan fikri izah etməyə çalışın”.

Ə.Cavadın “Səsli qız” poemasının məktəb proqramına daxil edilməsi də, qeyd olunduğu kimi, səbəbsiz deyildi. Bu əsər sənətkarın ömrü boyu arzuladığı insan azadlığı, milli-azadlıq idealları, dövlət müstəqilliyi ilə bağlı mövqeyini ifadə edirdi.

Yeni təhsil proqramının (kurikulumun) tətbiqi şairin yaradıcılığından bir neçə nümunənin tədrisinə imkan yaratdı. Ümumtəhsil məktəblərində çalışan müəllimlərlə müsahibə, müəyyənedici sınaq dərsləri, dərsliklərin quruluşunda aparılan dəyişikliklər aşağıdakı əsərlərin seçilməsinə rəvac verdi:

– V sinif: “Azərbaycan! Azərbaycan!”.
– IX sinif: “Azərbaycan bayrağına”.
– XI sinif: monoqrafik mövzu; həyatı, yaradıcılıq yolu, “Səsli qız” poeması.

Məktəb təcrübəsinin öyrənilməsindən aydınlaşır ki, müəllimlərin əksəriyyəti Ə.Cavadın şəxsiyyəti, əqidəsi və yaradıcılığında izlədiyi əsas qayə barədə aydın təsəvvürə malikdirlər. Bu, əlbəttə, uğurlu hal kimi dəyərləndirilməlidir. Lakin məktəbdə müasir metodika elminin tələblərinə qədərincə cavab verməyən vəziyyətin mövcud olduğunu da etiraf etmək lazımdır. Təəssüf ki, şagirdlərin idrak fəallığının, müstəqil düşüncələrinin inkişafına imkan yaradan, onlarda tədqiqatçılıq bacarığının formalaşmasına səbəb olan təlim metodları və priyomlarının, geniş mənada strategiyaların sistemli və qarşılıqlı əlaqədə tətbiqi məktəbdə hələ də az müşahidə edilir. Təhlil dərsləri üçün dərslikdə təklif edilmiş tapşırıqlara yaradıcı münasibət, sinfin səviyyəsindən asılı olaraq, onlara fərqli yanaşma da məktəb təcrübəsində yetərincə deyildir. Hələ də müəllimlərin bir qismi siniflər üzrə çap edilmiş metodik vəsaitləri lazımi səviyyədə mütaliə etməyə və tətbiqinə laqeyd yanaşırlar. Məqalədə V-IX siniflərdə şairin tədris edilən əsərlərinin timsalında məsələnin bu cəhətinə daha çox diqqət yetirilmiş, yuxarı siniflərdə monoqrafik mövzunun öyrədilməsinin səciyyəvi məqamları üzərində dayanılmışdır.

**Şairin yaradıcılığından nümunələrin ümumi orta təhsil pilləsində tədrisi**

Ə.Cavadın "Azərbaycan! Azərbaycan!" əsəri beşincilərin bu sinifdə öyrəndikləri ilk şeirdir. Bu, müəllimin məsuliyyətini əhəmiyyətli dərəcədə artırır. İbtidai təhsil pilləsində poeziya nümunələri ilə bağlı mənimsənilmiş bilik və bacarıqların, bu ədəbi növə sinfin münasibətinin diaqnostik qiymətləndirmə ilə aşkara çıxarılması əsərin tədrisindən əvvəl həyata keçirilməlidir. Əlbəttə, ilkin diaqnostik qiymətləndirmə sinifdəki bütün şagirdlərin zehni inkişaf səviyyəsini, hansı intellekt növünə mənsub olduqlarını dəqiq və tam müəyyənləşdirməyə imkan verə bilməz. Lakin bu prosesdə müəllimin şagirdlərlə bağlı öyrəndikləri də az olmur.

Şeirin tədrisinə ayrılmış ilk dərs saatı necə başlanmalıdır? Bu dərs bütövlükdə nə cür təşkil edilməlidir? Şagirdlərin şairlə ilk "görüşü" onun şəxsiyyətinə maraq oyatmalıdır. Məlumdur ki, V-IX siniflərin dərsliklərində yazıçıların həyatı haqqında məlumat verilməmiş, birbaşa tərcümeyi-hal materialları ilə bağlı məzmun standartları müəyyənləşdirilməmişdir. Lakin bu, əsəri tədris edilən sənətkarın həyatı haqqında heç bir məlumatın verilməməsi anlamına gəlmir. Dərsliklərdə hər bir sənətkar haqqında epiqraf verilmişdir. Onlar ya sənətkarın özünün, ya digər yazıçının, ya da tanınmış alimlərin fikirləridir. Epiqraflar elə seçilmişdir ki, yazıçı haqqında xeyli dərəcədə aydın təsəvvür yaradır. Müəllimin dərsə həmin epiqrafın oxusu ilə başlaması məqsədəuyğundur. Bu epiqrafdan dərs üçün motivasiyanın yaradılması məqsədilə də istifadə etmək olar. Dərslikdə Ə.Cavad haqqında akademik B.Nəbiyevin fikri epiqraf kimi verilmişdir. Epiqrafı dərsdə müəllimin özü, yaxud şagirdlərdən biri oxuya bilər. Hər iki halda bu mətndəki fikrin başa düşülməsi qayğısına qalmaq vacibdir. Epiqraf həcminə görə yığcam olsa da, məzmunca tutumludur. Onunla tanışlıqdan şagirdlərə məlum olur ki:

– Şair yüksək mədəniyyətli bir insan olmuşdur.
– Mənsub olduğu xalqın azadlığı uğrunda ardıcıl mübarizə aparmışdır.
– Doğma yurdun səadəti və xoşbəxtliyi onu ömrü boyu düşündürmüşdür.
– Vətəninə bir-birindən gözəl əsərlər həsr etmişdir.

Epiqrafdakı fikirlərdən çıxış edən müəllim əsərin mövzusu barədə şagirdlərin mövqeyini aşkara çıxara bilər. Yeri gəlmişkən, V-VII siniflərdə sənətkarların həyatı haqqındakı məlumatı epiqraf üzrə işlə məhdudlaşdırmaq olmaz. Bu siniflərdə sənətkarın öyrənilən əsərindən çıxış etməklə həyatı üçün mühüm olan məsələlərin üzərində yığcam dayanılması faydalıdır. Məsələn, Xəlil Rza Ulutürkün V sinifdə

tədris edilən "Oğul həsrəti" əsərinin birinci dərs saatında – şairlə ilk görüşdə onun milli-azdlıq hərəkatının fəal iştirakçısı olması, Vətən, azadlıq, dövlət müstəqilliyi mövzusunda yüzlərlə əsər yazması, əqidəsinə görə Moskva zindanına salınması barədə yığcam məlumatın verilməsi məqsədəuyğundur.

Epiqraf əsasında Ə.Cavad haqqında ilkin təəssüratın yaradılması onun şəxsiyyətinə, yaradıcılığına maraq oyadır. Sonrakı mərhələdə şagirdlərin diqqətinin dərslikdəki "Yada salın" başlıqlı tapşırığa cəlb edilməsi məqsədəuyğundur. Bu, fəndaxili inteqrasiyanın yaradılması baxımından faydalı olsa da, məktəb təcrübəsində, təəssüf ki, az diqqət yetirilən məsələlərdəndir. Təcrübəli müəllimlər motivasiya yaradanda bu suallardan vasitə kimi istifadə edirlər. Həmin suallardan istifadənin başqa bir variantına nəzər salaq. Sual ("Vətənimizə – Azərbaycana həsr olunmuş hansı əsərləri xatırlayırsınız?") şagirdləri xeyli düşündürür, onlar aşağı siniflərdə öyrəndikləri nümunələri yada salmağa cəhd edirlər. Belə məqamlarda müəllimin istiqamətləndirici suallarına ehtiyac duyulur. Yaxud müəllimin aşağı siniflərdə öyrənilmiş şeirlərdən bir neçə misra deməsi şagirdlərin yaddaşını oyadır. Deməli, müəllim buna hazır olmalıdır.

İkinci suala ("Bu əsərlərdə, başlıca olaraq, hansı məsələlərdən danışılır?") cavab verməkdə şagirdlər ciddi çətinlik çəkmirlər. Yada salınmış əsərlərdə təsvir olunanlar şagirdlərin yaddaşında xeyli dərəcədə aydınlıqla canlanır. Müsahibənin sonunda tədqiqat sualı formalaşdırılır: *Vətən mövzusunda yazılmış şeirlər oxucunu daha çox hansı cəhətləri ilə cəlb edir?*

Şagirdlərə izah edilir ki, bu sualla bağlı söylədikləri ehtimalları yoxlamaq üçün Ə.Cavadın "Azərbaycan! Azərbaycan!" şeirinin üzərində işləyəcəklər. İlk növbədə əsərin oxusu həyata keçirilməlidir. Lirik şeirlərin oxusu ilə bağlı metodik ədəbiyyatda fərqli iş növləri təklif edilmişdir. V sinfin dərsliyində oxu üçün seçim imkanı yaradılmışdır. Başqa sözlə, şeirin fərdi səssiz oxusunun, yaxud səsli oxunun dinlənilməsinin həyata keçirilməsi mümkün hesab edilmişdir. Məktəb təcrübəsində qədərincə tətbiq edilməyən bir məsələnin diqqətə çatdırılmasını vacib hesab edirik. Şagirdlərin tədrisi nəzərdə tutulmuş əsərlə müstəqil tanış olmalarına imkan yaradılmalıdır. Bunun qabaqlayıcı tapşırıq kimi evdə yerinə yetirilməsinə nail olmaq daha faydalıdır. Nəticənin yoxlanılması, təbiidir ki, sinifdə gerçəkləşdirilməlidir. Əsəri müstəqil oxuyan şagirddə ilkin təəssürat yaranır, o, birtərəfli, dayaz, hətta bəzən yanlış ola bilər. Lakin bu, əsərin müəyyən estetik-emosional təsir bağışlamasına mane olmur. Təsirlənmə zəif də olsa, baş verir. Deməli, əsərin

müəyyən səviyyədə qavranılması həyata keçmiş olur. Bu, *ilkin qavrama* adlandırılır. Onun hansı səviyyədə olduğunu müəyyənləşdirmək vacibdir. Bu, əsərin öyrənilməsinin sonrakı mərhələlərinin necə təşkil edilməsinə əhəmiyyətli dərəcədə təsir edir. İlkin qavrama müxtəlif şagirdlərdə səviyyəcə fərqli olsa da, ümumi təsəvvür qazanmaq müəllim üçün çətin olmur. İlkin qavramanın səviyyəsinin aşkara çıxarılması üçün fərqli yollar vardır. Vaxta qənaət baxımından müsahibənin aparılması daha əlverişlidir. Müsahibəni aşağıdakı suallar əsasında aparmaq olar.

1. Şeir xoşunuza gəldimi? Səbəbini necə izah edərsiniz?
2. Əsərdə diqqətinizi daha çox çəkən nə oldu? Fikrinizi təsdiq edən nümunələr göstərin.
3. Şeirdən vətənimizin təbiəti haqqında yeni nə öyrəndiniz?
4. Ölkəmizin təbii sərvətləri barədə şeirdə nə deyilir?
5. Sizcə, müəllifin bu şeiri yazmasına səbəb nədir?

Cavablar, deyildiyi kimi, sonrakı mərhələlərin, xüsusən məzmun üzrə işin necə təşkil edilməsinə istiqamət verir.

Oxu prosesində mənimsənilənlərin dərinləşdirilməsinə məzmun üzrə işin təşkilində xüsusi diqqət yetirilir. Bu, fərqli məzmunda işlərin təşkili ilə həyata keçirilir. İşin hansı məzmunda reallaşdırılmasından asılı olmayaraq, əyani və texniki vasitələrdən istifadə əhəmiyyətlidir. Şeirin məzmunu əyaniliyin olmasını tələb edir. Məzmununun öyrənilməsi oxunun daha dərinləşmiş şəkildə təkrar olunması ilə müşayiət edilir. Məsələ burasındadır ki, şeirin hər bəndi təsəvvürün işinə geniş imkan verir. Bundan çıxış edərək şagirdlərin müstəqil işi üçün tapşırıqlar hazırlamaq və icra etdirmək mümkündür. Bunun bir variantını bu qaydada təşkil etmək olar. Dörd qrup yaradılır. Qrupların hər biri şeirin iki bəndi üzərində işləyir. Tapşırıqlar aşağıdakı məzmunda təklif edilə bilər.

**Birinci qrup**

*Aşağıdakı bəndləri yenidən diqqətlə oxuyun və tapşırıqları yerinə yetirin.*

Dağlarının başı qarlı,
Sinəsi yaşıl ormanlı,
Dərələrin şirin barlı,
Azərbaycan! Azərbaycan!
Durna gözlü bulaqların,
Cənnət kimi yaylaqların,
Geniş-geniş oymaqların,

Azərbaycan! Azərbaycan!

1. Bu parçada diqqətinizi daha çox cəlb edən nə oldu?
2. Bəndlərdəki hansı sözlər sizin üçün yeni və maraqlıdır?
3. Bəndlərdə sizə tanış olan fikir varmı?
4. Bu parça vətənimizin təbiəti haqqında bildiklərinizə yeni nə əlavə etdi?
5. Bəndlərdə sizə tanış olmayan sözlər varmı? Lüğətlərdən istifadə etməklə onların mənasını aydınlaşdırın.
6. Bəndlərdə işlənmiş bədii təsvir vasitələrini və onların növünü müəyyənləşdirin.

**İkinci qrup**

*Aşağıdakı bəndləri yenidən diqqətlə oxuyun və tapşırıqları yerinə yetirin.*

Ormanında maral gəzər,
Çöllərində ceyran süzər,
Göllərində qazlar üzər,
Azərbaycan! Azərbaycan!

Qayaların əlvan mərmər,
Belində var qızıl kəmər,
Bir yanında bəhri-Xəzər
Azərbaycan! Azərbaycan!

1. Bu parçada diqqətinizi daha çox çəkən nə oldu?
2. Bənddəki fikirlərdən hansı, sizcə, daha təsirlidir?
3. Bu bəndlərdə sizin üçün yeni və maraqlı olan nədir?
4. Bu parçada sizə tanış olmayan sözlər hansılardır? Lüğətlərdən istifadə etməklə onların mənasını aydınlaşdırın.
5. Bəndlərdə işlənmiş bədii təsvir vasitələrini və onların növünü müəyyənləşdirin.

**Üçüncü qrup**

*Aşağıdakı bəndləri yenidən diqqətlə oxuyun və tapşırıqları yerinə yetirin.*

Sinən odu şölə salır,
Dünya səndən işıq alır,
Verməyəndə zülmət qalır,

Azərbaycan! Azərbaycan!
İpək, pambıq, yunun çoxdur,
Arpa, buğda, düyün çoxdur,
Hər şeyin var, nəyin yoxdur?!
Azərbaycan! Azərbaycan!

1. Bu parçada diqqətinizi daha çox çəkən nə oldu?
2. Bəndlərdə sizə tanış olan fikir, hiss varmı? Varsa, izah edin.
3. "Sinən odu şölə salır, Dünya səndən işıq alır..." misralarında ifadə olunmuş fikirləri necə izah edərsiniz?
4. Bəndlərdə sizə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırın.
5. Dərslikdə mövzuya aid verilmiş şəkli uğurlu saymaq olarmı?

**Dördüncü qrup**

*Aşağıdakı bəndləri yenidən diqqətlə oxuyun və tapşırıqları yerinə yetirin.*

Yer üzündə yoxdur tayın,
Gur-gur axır neçə çayın,
Bol veribdir fələk payın,
Azərbaycan! Azərbaycan!

Laçının var, tərlanın var,
Çoxlu şirin dastanın var,
Qorxun yoxdur, düşmanın var,
Azərbaycan! Azərbaycan!

1. Bu bəndlərdə diqqətinizi daha çox çəkən nə oldu?
2. Bu parçadakı hansı fikri daha parlaq sayırsınız?
3. Tapşırıqdakı birinci bəndi şeirin ən uğurlu parçası saymaq olarmı? Nə üçün?
4. Bəndlərdə sizə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırın.
5. Bəndlərdə işlənmiş bədii təsvir vasitələri və onların növünü müəyyənləşdirin.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra qruplar təqdimatlar əsasında bir-birinin işinin nəticələri ilə tanış olurlar. Məlumat mübadiləsi, eləcə də müzakirə prosesində şagirdlərin fəallığı, diskussiya şəraitinin yaradılması təmin edilir.

Şeirin oxusu və məzmunu üzrə işin bu istiqamətdə təşkili təhlil dərsinin səmərəli keçməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Təhlilə həsr edilmiş dərsdə

şagirdlərin araşdırma aparmalarına imkan yaradan müstəqil işlərin təşkilinə önəm verilir.

Qruplara müstəqil iş üçün aşağıdakı məzmunda tapşırıqlar təklif edilir.

**Birinci qrup**

1. Şeir hansı mövzuda yazılmışdır? Fikrinizi nümunələrlə əsaslandırın.
2. Sizcə, müəllifi bu əsərdə daha çox maraqlandıran nə olmuşdur?
3. Şeirin ilk iki bəndində işlənmiş bədii təsvir vasitələri sizdə hansı hisslər yaratdı? Onlarsız həmin misralar oxucuya necə təsir bağışlardı?

**İkinci qrup**

1. Bu mövzunun şairi cəlb etməsinin səbəbini necə izah edərsiniz?
2. Əsərdə Azərbaycan təbiətinin gözəlliklərinə geniş yer verilib. Sizcə, buna səbəb nədir?
3. Şeirin dördüncü bəndində işlənmiş bədii təsvir vasitələri təsəvvürünüzdə hansı mənzərəni yaratdı?

**Üçüncü qrup**

1. Ölkəmizin təbii sərvətlərinin, nemətlərinin şeirdə sadalanmasının səbəbini necə izah edərsiniz?
2. “Şeirdə müəllifin doğma yurduna sonsuz məhəbbəti ifadə olunmuşdur” fikrini necə əsaslandırarsınız?
3. “Şeirdə sözlər uğurla seçilmişdir” fikrini necə başa düşürsünüz? Bunu təsdiq edən nümunələr göstərə bilərsinizmi?

**Dördüncü qrup**

1. “Şeir oxucuda iftixar hissi yaradır” fikrini necə başa düşürsünüz? Onu doğru saymaq olarmı? Nə üçün?
2. Şeirin maraqla oxunmasının səbəbini necə izah edərsiniz?
3. Şeirdəki başlıca fikir – ideya, sizcə, nədir?

Şeirin təhlilinə həsr olunmuş dərsdə *qafiyə, misra* və *bənd* anlayışlarının mənimsədilməsi nəzərdə tutulmuşdur. Buna nail olmaq üçün işi fərqli variantlarda təşkil etmək olar. Dərslikdəki variant belədir: şagirdlərə “Əsərlə bağlı açıqlamalar” mətnindən öyrəndiklərini tətbiq etmək təklif olunur. İşin digər variantı aşağıdakı şəkildə ola bilər. Şagirdlərin diqqəti şeirin birinci bəndindəki *qarlı, ormanlı, barlı* sözlərinə cəlb edilir. Onların səslənmələrindəki oxşarlığı şagirdlər müəyyənləşdirirlər. İkinci bənddəki eyni tipli sözlər (bulaqların, yaylaqların, oymaqların) şagirdlər tərəfindən müstəqil müəyyən edilir. Onlara bəndləri ucadan

oxumaq, həmin sözlərin yaratdığı ahəngi "dinləmək" təklif edilir və izah olunur ki, bu qəbildən kəlmələr *həmqafiyə sözlər* adlanır, şeirdə ahəngin yaranmasında əhəmiyyətli rol oynayır. Bunun ardınca şeirin üzərində müşahidə aparmaqla misra və bənd anlayışlarının başa düşülməsinə nail olunur. Onların məzmunca bir-biri ilə əlaqəli olduğu nümunələr əsasında aydınlaşdırılır.

Şeirin tədrisinə ayrılmış üçüncü dərs saatı *ifadəli* oxunun təşkilinə həsr edilir. Bu dərsin təşkili ilə bağlı dərslikdə təklif edilmiş model kifayət qədər əsaslandırılmışdır və onun olduğu kimi tətbiqi məqsədəuyğundur.

Ümumi orta təhsil pilləsində tədris olunan ikinci əsər, artıq qeyd edildiyi kimi, şairin "Azərbaycan bayrağına" şeiridir. Onun öyrənilməsinə iki dərs saatı ayrılmışdır. Birinci saat şeirin oxusu, məzmununun öyrənilməsinə həsr edilir. Sual yaranır: *Bu sinifdə şairin həyatı haqqında məlumatın verilməsi necə təşkil edilməlidir?* VIII və IX siniflərdə yazıçının həyatı haqqında məlumatın öyrədilməsi həm məzmununa, həm də formasına görə V-VII siniflərdən fərqlənir. Bu siniflərdə hər bölmədən sonra şagirdlərin müstəqil icra etmələri üçün tapşırıq təklif edilir. IX sinifdə həmin tapşırığın məzmunu belədir: "Bölmədə tanış olduğunuz sənətkarların həyatı haqqında kitabxana və ya internetdəki mənbələrdən topladığınız məlumat əsasında təqdimata hazırlaşın". Şagirdlər kiçik qruplara ayrılır, hər qrup bölmədəki bir sənətkarla bağlı məlumat toplamaq tapşırığı alır. Qruplar hazır olduqca onların təqdimatları dinlənilir və müzakirə edilir. Bu barədə metodik vəsaitlərdə əhatəli məlumat verilsə də, təəssüf ki, məktəb təcrübəsində həmin istiqamətdə işin təşkilinə çox az hallarda yer verilir.

Deyilənlərdən aydınlaşır ki, Ə.Cavadın həyatı haqqında IX sinifdə məlumatın öyrənilməsi bölmə başa çatdıqdan sonra şagirdlərin müstəqil fəaliyyəti əsasında həyata keçirilir. Şeirin tədrisinə ayrılmış birinci dərs saatında isə ilk növbədə epiqrafın üzərində işin təşkili vacibdir. Epiqrafı müəllimin oxuması məqsədəuyğundur. Onun məzmunundan aydın olur ki:

- Ə.Cavad Azərbaycan poeziyasında özünəməxsus ədəbi taleyi olan sənətkardır.
- O, sənətdə orijinal yolu olan, nadir istedad sahibi kimi tanınan şairlərdəndir.
- Şair ümumşərq islam zehniyyətinə, ümumtürk mənəvi qaynaqlarına, xüsusən də ana dilimizdə yaranmış poeziyamıza dərindən bələd olan şəxs kimi tanınmışdır.

Müəllim epiqrafda ifadə olunmuş fikirlərin mənimsənildiyinə əmin olmalıdır. Ehtiyac yaranarsa, sual da vermək olar. Şagirdlərin fəallaşdırılması, tədqiqat sualının müəyyən edilməsindən sonra şeirin oxusu həyata keçirilir. Sual yaranır: Bu qəbildən əsərlərin oxusundan birbaşa təhlil mərhələsinə keçmək olmazmı? Metodik ədəbiyyatda bu sualın əsaslandırılmış cavabı var. Onun son illər təkrar səsləndirilməsindən aydınlaşır ki, nəzəri metodikanın, metodik fikir tarixinin öyrənilməsinə laqeydlik daha da artıb. Təəccüb doğuran həm də budur ki, fikri səsləndirənlər heç bir dəlil göstərmədən əminliklə danışırlar. Məlumdur ki, oxu əsərin məzmununun öyrənilməsi üçün istifadə olunan mühüm, çoxcəhətli və əhəmiyyətli vasitədir. Elə buna görə də çox vaxt "əsərin oxusu və məzmunu üzrə iş" ifadəsinə rast gəlmək olur. Yəni "oxu" fərqləndirilir, ayrıca mərhələ kimi nəzərə çarpdırılır. Beləliklə: Əsərin oxusundan birbaşa təhlil mərhələsinə keçmək olarmı? Əlbəttə, yox. Metodikada çoxdan əsaslandırılmış fikrə görə, əsərin oxusu nə qədər mükəmməl həyata keçirilsə də, məzmunun mənimsənilməsini bütövlükdə əhatə edə bilməz. Əsərin məzmununun əhatəli mənimsənilməsi üçün müxtəlif iş növlərinin tətbiqinə ehtiyac yaranır. Və bu mərhələdə ədəbi növ və janrın özəlliyi diqqət mərkəzində saxlanılır.

Metodikada məsələnin başqa tərəfi də ifadə edilib: heca vəznində yazılmış, mənimsənilməsi ciddi çətinlik törətməyən kiçikhəcmli şeirlərin oxusu ilə kifayətlənmək və təhlil mərhələsinə keçmək mümkündür. Bir şərtlə ki, oxu prosesində məzmunun mükəmməl mənimsənilməsi gerçəkləşdirilmiş olsun.

Son vaxtlar oxudan birbaşa təhlilə keçilməsinin əhəmiyyətindən danışanlar xarici ölkələrdəki təcrübənin kor-koranə tətbiq edilməsinin tərəfdarı olanlardır. Lakin onlar unudurlar ki, əcnəbilər "oxu" anlayışını əsərin mükəmməl mənimsənilməsi anlamında qavrayırlar. Yəni bizim "məzmun üzrə iş" mərhələsində həyata keçirdiklərimizi oxu prosesində reallaşdırırlar.

Bəs "Azərbaycan bayrağı" şeirinin tədrisində hansı yolun seçilməsi daha faydalıdır?

Həcmi kiçik olsa da, şeirdə izah edilməli bəzi məsələlər var. Buna görə də onun sinifdə şagirdlərin fəal iştirakı ilə izahlı oxusunun təşkili variantlardan biri ola bilər. Şeirdəki *Türküstan, Quzğun dəniz, Turan, Qayı xan soyu, Elxan* kimi söz və ifadələrin mənasının dərslikdəki lüğətdə açıqlanması izahlı oxuda şagirdlərin fəallığını təmin edir, burada həmçinin müəllimin əlavələrinə də ehtiyac yaranır.

Şair:

– Azərbaycan Parlamentinin binası üzərində dalğalanan azadlıq, müstəqillik bayrağının bütün Türküstana müəssər olmasını arzulayır;

– bayrağımızın öz rəngini qədim türk soyundan aldığını göstərir;

– bu rəngin türk dövlətləri üçün əziz olduğunu nəzərə çarpdırır.

Məzmun üzrə qazanılmış məlumatın dərinləşdirilməsi qayğısına qalmaq faydalıdır. Bunun səmərəli yollarından biri əsərə müstəqil münasibətin bildirilməsinə nail olmaqdır. Şagirdlərə əsərlə bağlı təəssüratlarını ikihissəli gündəlikdə qeyd etmək təklif oluna bilər. Nəticənin yoxlanılması isə vacibdir. Bunun üçün təqdimatların dinlənilməsinə, onlara münasibət bildirilməsinə vaxt ayrılır.

Şeirin təhlilinə həsr edilmiş dərsi fərqli iş formalarının tətbiqi ilə təşkil etmək mümkündür. Bunlardan biri kiçik qruplarda iş formasından istifadə ola bilər. Bu səbəbdən hər qrup üçün tapşırıq müəyyənləşdirilir. Tapşırıqlarda aşağıdakı tələblərin əksini tapması məqsədəuyğundur:

- Şeir hansı mövzuda yazılmışdır? Fikrinizi əsərdən nümunələrlə əsaslandırın.
- Şairi riqqətə gətirən əsas səbəb, sizcə, nədir?
- Müəllif haqqında sizdə hansı təəssürat yarandı?
- Şairin bütövlükdə türk elləri, türk xalqları barədə düşünməsinin səbəbini necə izah edərsiniz?
- Şeirdə qədim türklərin – oğuzların, türk dövlətlərinin xatırladılmasında məqsəd, sizcə, nədir?
- Şeirdə işlənmiş həmqafiyə sözləri uğurlu saymaq olarmı? Ahəngin yaranmasında onların rolunu aydınlaşdırın.
- Fikrin təsir gücünün artmasında məcazların oynadığı rolu nümunələrlə əsaslandırın.
- Əsərdəki başlıca fikir – ideya, sizcə, nədir?

Şagirdlərin qrup daxilində əməkdaşlıq şəraitində işləməsinə diqqət yetirilir. Ehtiyac yaranan məqamlarda onlara istiqamətləndirici suallarla kömək göstərilir.

Formativ qiymətləndirmə dərsdə reallaşdırmaq üçün seçilmiş standartların əsasında aparılır.

**Monoqrafik mövzunun tədrisi üzrə işin başlıca istiqamətləri**

X sinfin dərsliyinin konsepsiyasına uyğun olaraq, Ə.Cavadla bağlı monoqrafik mövzunun tədrisinə də fərqli yanaşılır. *Dərsliyin başlıca məqsədi şagirdlərin maksimum fəallığına nail olmaq, onları tədqiqatçı mövqeyinə yüksəltməkdir*. Bu, mövzunun öyrənilməsinin ilk mərhələlərindən diqqət mərkəzində saxlanılır. Başqa

sözlə, dərslikdə yazıçının həyatı, yaradıcılıq yolu ilə bağlı materialın oxusu şagirdlərin müstəqil düşüncələrinin təşkili, idrak fəallığının təmin edilməsi ilə həyata keçirilir. Bunun üçün mövzuların əvvəlində "Araşdırmaya hazırlaşın" başlıqlı təlimat-tapşırıq verilmişdir. İlk tapşırıq belədir: "Ə.Cavad haqqında bildiklərinizi yada salıb yığcam müzakirə aparın".

Bu, sinfin fəallaşdırılması, fəndaxili inteqrasiyanın yaradılması baxımından əhəmiyyətlidir. Şagirdlər şair haqqında aşağı siniflərdə mənimsədiklərini müəllimin sualları əsasında xatırlayırlar. Məlum olur ki, məktəblilər internet resursları, həmçinin tarix dərslərindən də xeyli məlumat əldə ediblər.

Ardınca təlimat-tapşırıqda təklif edilmiş qaydalara əməl edilməklə mətnin oxusu həyata keçirilir. Qaydalar aşağıdakı şəkildə müəyyənləşdirilib:

a) İlk sualı və onunla bağlı mətni oxumaq üçün iki nəfər ayrılır. Onlardan biri mətni ucadan oxuyur, oxunmuş hissə ilə bağlı ikilikdə açar sözlər müəyyənləşdirirlər.
b) Mətni oxumayan ikinci şagird açar sözlərdən istifadə etməklə suallar hazırlayır və onlara cavab verməyi birinci şagirdə təklif edir. Cavabların müzakirəsində bütün sinif iştirak edir.
c) Cütlüklər əvəzlənməklə digər mətnkənarı suallar və onların cavabları bu qayda ilə oxunub başa çatdırılır.

Müasir oxu təlimi strategiyaları əsasında hazırlanmış bu təlimat-tapşırıq yazıçının həyat və yaradıcılığı ilə bağlı dərslikdə əks olunmuş məlumatın əhatəli mənimsənilməsi ilə məhdudlaşmır; mətnə tənqidi münasibət formalaşır, öyrənilməsinə ehtiyac duyulan əlavə məlumat haqqında təsəvvür yaranır, sinfi müstəqil düşünməyə, fəal fikri fəallığa yönəldir.

Açar sözlərin müəyyənləşdirilməsi mətndəki başlıca fikrə diqqətin cəlb edilməsi baxımından faydalıdır. Bu sözlər sualların formalaşdırılmasında aparıcı mövqedə olur. Suallara cavabların verilməsində bütün sinfin iştirakı təmin edilir. Cütlüklər əvəzlənməklə mətnkənarı sualların oxunması işə daha çox şagirdin cəlb edilməsinə imkan yaradır və s.

Məktəblərdə aparılan müşahidələrdən, iş təcrübəsindən yazan müəllimlərin məqalələrindən və rəylərdən aydınlaşır ki, dərsliyin metodik istiqamətinin, başlıca məqsədinin reallaşdırılması hələ də yetərincə deyildir. Şairin tərcümeyi-halını və

yaradıcılıq yolunu əhatə edən materialda üç mətnkənarı sualın cavabının öyrənilməsi nəzərdə tutulmuşdur. Sualların dərslikdə verilən cavabları yığcam və natamamdır. Bu cavabların digər mənbələrdən əldə edilmiş məlumatlarla tamamlanması və zənginləşdirilməsi dərslikdə ayrıca tapşırıq kimi əks etdirilmişdir. Deməli, məktəblilər ilk növbədə dərslikdəki mətni oxumaqla araşdırılan sualların cavabı ilə bağlı müəyyən təsəvvür qazanır, sonra mənbələri araşdırır, müvafiq məlumatlar toplayır, onları ətraflı öyrənir, müqayisə edir, təhlil və ümumiləşdirmə aparır, çıxardıqları nəticələr əsasında təqdimata hazırlaşırlar. Bu, biliyin müstəqil əldə edilməsi yolunda əhəmiyyətli addım, səmərəli təlim fəaliyyətidir.

Deyilənlərin daha aydın təsəvvür edilməsi üçün bir nümunəyə nəzər salaq. Şairin "Həyatı, yaradıcılıq yolu" mövzusu üçün müəyyənləşdirilmiş birinci mətnkənarı sual belədir: *"Ə.Cavadın uşaqlığı, gəncliyi və yaradıcılığının ilk dövrü üçün səciyyəvi olanlar nədir?"*

Bu sualın cavabı dərslikdə bir abzas həcmində olub, yığcam şəkildə verilmişdir. Başqa sözlə, şairin anadan olduğu yer, ilk təhsili, ruhani seminariyasında oxuyarkən şeirlər yazması, bu əsərlərin dilinin get-gedə durulaşması qeyd edilməklə kifayətlənilmişdir.

Şagirdlərə bu məlumatı dərslikdə göstərilmiş aşağıdakı mənbələr əsasında zənginləşdirmək və tamamlamaq təklif edilmişdir:

1. XI sinif şagirdləri üçün elektron vəsait: http://edebiyyat.ucoz.com
2. Ə.Cavad. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, səh.4-9.

Əlbəttə, şagirdlərin digər mənbələrə müraciət etmələri də mümkün və faydalıdır. Dərslikdə göstərilən mənbələr isə araşdırılması tələb olunan sualla bağlı aşağıdakı məzmunda əlavə məlumatın əldə edilməsinə imkan yaradır:

- Gəncədə ruhani seminariyasını bitirdikdən sonra əlavə imtahan verərək müəllimlik şəhadətnaməsi almış və müəllim kimi fəaliyyət göstərmişdir.
- Yaradıcılığa lirik şeirlərlə başlamış, lirikaya həmişə üstünlük vermişdir.
- O, 1910-cu ildən lirik şeirlərini çap etdirməyə başlamışdır.
- Qəzet və jurnallarda lirik şeirləri ilə yanaşı, məqalələri də çap olunmuşdur.

Şagirdlərin tədqiqatı üç mətnkənarı sualla məhdulaşmır. Onlar mənbələr üzrə müstəqil tədqiqat apararkən dərslikdə təklif edilmiş iki əlavə tapşırıq üzrə də işləməli olurlar.

Şagirdlərin müstəqil fəaliyyətinin təmin edilməsi bədii əsərlərin təhlili prosesində də həyata keçirilir. Bu, ilk növbədə təhlil materialının oxusunda gerçəkləşdirilir. Belə ki dərslikdə təklif edilmiş qaydalar təhlil materialının müzakirə

əsasında mənimsənilməsinə, şagirdlərdə tənqidi təfəkkürün, ümumiləşdirmə bacarığının inkişafına xeyli dərəcədə təsir edir. Qaydaların əhəmiyyətini onların tələbləri aydın şəkildə nümayiş etdirir:

– Şagird oxuduğu parçadakı fikri ümumiləşdirib bir neçə cümlədə ifadə etməlidir.
– Sinfə mətnlə bağlı suallar verməlidir.
– Bu sualların əsasında aparılan müzakirədə izahına ehtiyac duyulan məsələlərə aydınlıq gətirməlidir.
– Bütün sinif mətnə – mətnkənarı sualların cavablarına mənbələrdən hansı məzmunda əlavələrin edilməsi barədə nəticə çıxarmalıdır.

Bədii əsərlərin təhlilində də şagird araşdırmaları mətnkənarı sualların əsasında aparılır. Bu suallar açıq tipli olub tədqiqata, fərqli fikirlərin söylənməsinə geniş imkan yaradır. Məsələn: *Əsər hansı mövzuda yazılıb? Şairin bu mövzuya müraciət etməsinə səbəb, sizcə, nədir? Poemadakı obrazlar hansı səciyyəvi xüsusiyyətləri ilə seçilirlər? Əsər hansı bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir? və s.*

Göründüyü kimi, X sinfin "Ədəbiyyat" dərsliyində müəyyənləşdirilmiş metodik istiqamət elmi tədqiqatın məzmununa və başlıca istiqamətinə uyğundur. Beləliklə: mövzu barədə ilkin məlumatın dərslikdən öyrənilməsi, əlavə mənbələrin araşdırılması əsasında yeni biliyin qazanılması, dəqiqləşdirilməsi, müqayisə və təhlil edilməsi, ümumiləşdirmənin aparılması, müstəqil nəticənin çıxarılması, təqdimatın hazırlanması... Bu, şagirdləri müstəqil tədqiqata alışdırmağın səmərəli yolu kimi əsaslandırılmış və məktəb təcrübəsində sınaqdan keçirilmişdir.

## Nəticə / Conclusion

Tədqiqat aşağıdakı ümumiləşdirmənin aparılmasına, nəticənin çıxarılmasına imkan vermişdir:

– Azərbaycan tarixinə böyük vətənpərvər və istedadlı sənətkar kimi daxil olan Əhməd Cavadın yaradıcılığının ölkəmizdə araşdırılması və tədrisi son onilliklərdə gerçəkləşdirilmişdir. Az bir müddətdə bu istiqamətdə xeyli iş görülsə də, araşdırılmalı problemlər daha çoxdur.

– Şairin əsərlərinin bütünlüklə toplanması, çapı və təhlil edilməsi ədəbiyyatşünaslığımızın mühüm vəzifəsi kimi həllini gözləyir.

– Şairin yaradıcılığında lirika əhəmiyyətli yer tutur. Daha çox diqqət yetirdiyi isə siyasi lirika olmuşdur. Dövlət müstəqilliyini, ölkəmizin azad, firavan yaşamasını ömrü boyu arzulayan bu böyük ürək sahibi bir-birindən gözəl onlarla lirik şeirlər yazmışdır.

– Ə. Cavadın yardıcılığından nümunələrə ümumi orta təhsil pilləsində, eləcə də tam orta təhsil pilləsində yer verilmişdir. Tam orta təhsil pilləsində – XI sinifdə sənətkara ayrıca oçerk həsr edilmişdir. Onun yaradıcılığından seçilmiş nümunələri gənc nəsil böyük maraqla mütaliə edir.

– Şairin tərcümeyi-halının və yaradıcılığının tədrisi ilə bağlı məktəbdə xeyli təcrübə toplanmışdır. Lakin yeni təlimi yanaşma və strategiyaların tələblərini əks etdirən metodik yazılara ciddi ehtiyac duyulur. Dərsliklərlə işin təşkili metodikası üzrə yazıların hazırlanması və çapı da müəllimlərə metodik kömək baxımından faydalı olardı.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Həbibbəyli İ., Hüseynoğlu S., Həsənli B., Mustafayeva A. (2018). Ədəbiyyat. X sinif üçün dərslik. Bakı, Bakınəşr. 208 s.
2. Hüseynoğlu S. (2019). Ədəbiyyatın məktəbdə öyrədilməsi. Bakı, 264 s.
3. Hüseynoğlu S., Həsənli B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. (2019). Ədəbiyyat. VIII sinif üçün dərslik. Bakı, Bakınəşr. 208 s.
4. Hüseynoğlu S., Həsənli B., Səfərova Ə., Quliyev Ə. (2020). Ədəbiyyat. V sinif üçün dərslik. Bakı, Bakınəşr. 208 s.
5. Veysova Z. (2007). Fəal/interaktiv təlim. Bakı, 150 s.